

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 241 (21.651)

17 dekabr 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin daim yüksək səviyyədə əməkdaşlıq, dostluq, qarşılıqlı anlaşma prinsipləri ilə xarakterizə olunduğunu bildirərək bu prinsiplərin əlaqələrimizin müxtəlif istiqamətləri, o cümlədən siyasi, iqtisadi, ticarət, energetika sahələrində sıx qarşılıqlı fəaliyyət ənənələri əsasında uğurla inkişaf etdiyini deyib. Hökumətlərarası Birgə İqtisadi Komissiyanın fəaliyyətinə toxunan Prezident İlham Əliyev bu gün komissiyanın Bakıda keçirilən iclası zamanı əməkdaşlıqla bağlı müxtəlif məsələlərin konstruktiv və uğurlu şəkildə müzakirə edildiyini vurğulayıb. Azərbaycanın Rusiya ilə ikitərəfli əlaqələrin möhkəmləndirilməsində maraqlı olduğunu deyən Prezident İlham Əliyev bildirib ki, bu əlaqələr son dövrlərdə daha sürətlə inkişaf edir, Azərbaycan və Rusiya prezidentlərinin mütəmadi görüşləri bunun yaxşı göstəricisidir.

Xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozin Hökumətlərarası Birgə İqtisadi Komissiya çərçivəsində mütəmadi iclasların keçirilməsinin önəmini qeyd edib.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## "Ümummilli lider Heydər Əliyev və Dünya Azərbaycanlılarının Həmrəyliyi hərəkatı" mövzusunda elmi-praktik konfrans

***Dekabrın 16-da Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli qərarının 25-ci ildönümü münasibətilə elmi-praktik konfrans keçirib.***



Konfransı Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli açaraq bildirib ki, Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilk dəfə ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən məhz Onun təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Ali Məclisdə qəbul olunmuş qərarla bayram elan edilib. Bu gün həmin qərarın qəbul olunmasının 25-ci ildönümü tamam olur. Bu qərarın Azərbaycan xalqının və dövlətçiliyinin tarixində müstəsna əhəmiyyəti bu gün artıq özünü onda göstərib və təsdiq edib ki, dünya azərbaycanlılarının vahid dövlət ideyası ətrafında birləşməsi hərəkatı məhz həmin qərarla başlanıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini, Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli qərarı və onun ümummilli əhəmiyyəti" mövzusunda çıxış edərək bildirib ki, 1990-cı il iyulun 22-də ulu öndər Heydər Əliyevin Moskvadan Naxçıvana qayıtması Azərbaycan xalqının və dövlətçiliyinin tarixi taleyində dönüş nöqtəsi olub. Bu qayıdış Vətənin məşəqqətli və böhranlı günlərində xalqla bir yerdə olmaq inamının ifadəsinin və obyektiv tarixi zərurətin təntənəsinə çevrilib. 1991-ci il dekabrın 16-da ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi "31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarla bu gün artıq yüksəliş mərhələsini yaşayan bütün dünya azərbaycanlılarının vahid bayraq altında birləşməsi prosesinin əsası qoyulub.

Diqqətə çatdırılıb ki, Naxçıvanda taleyüklü tarixi qərarların qəbul edildiyi bir vaxtda Azərbaycana rəhbərlik edən naşı, səriştəsiz şəxslərin yarıtmaz siyasəti və məsuliyyətsiz əməlləri ölkəni vətəndaş müharibəsinin bir addımlığına gətirib çıxarıb, milli dövlətçiliyimizi isə real məhvolma təhlükəsi ilə üz-üzə qoyub. Belə bir taleyüklü anda ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıdışı Azərbaycanı bəlalardan xilas edib. Həmin ildən Dünya Azərbaycanlılarının Həmrəylik Günü bütün ölkə miqyasında geniş şəkildə qeyd olunub. Ümummilli lider səfər etdiyi bütün ölkələrdə orada yaşayan azərbaycanlılarla görüşlər keçirib, onların təşkilatlanması istiqamətində zəruri tədbirlər görüb.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Şurasının üzvü, Heydər Əliyev adına tam orta məktəbin müəllimi Könül Mirzəyeva "Ulu öndər Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi" mövzusunda çıxış edib. Qeyd olunub ki, 1991-ci ildə qəbul edilmiş tarixi qərar öz əhəmiyyətini 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı ilə bir daha göstərdi. 2006-cı il martın 16-da II, 2011-ci il iyulun 5-də III, bu il iyunun 3-də isə IV qurultay keçirilib. 25 il ərzində dünya azərbaycanlılarının təşkilatlanması istiqamətində görülən işlərin təhlili onu göstərir ki, bütün sahələrdə olduğu kimi, bu sahədə də Azərbaycan dövlətinin gördüyü işlər son dərəcə uğurlu olub. Hər il dekabrın 31-də azərbaycanlıların yaşadığı bir çox xarici ölkələrdə Dünya Azərbaycanlılarının Həmrəylik Gününün bayram kimi geniş qeyd edilməsi onu göstərir ki, artıq ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə tarixiləşdirilən xalqımızın birlik və həmrəylik hərəkatı Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunmasına xidmət edən çox mühüm amillərdən birinə çevrilib.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin üzvü Tünzalə Dilanova "Azərbaycançılıq ideologiyası milli birlik və həmrəyliyin ideoloji formuludur" mövzusundakı çıxışında bildirib ki, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyası özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva etməklə milli həmrəyliyi təmin edən milli-mənəvi mexanizmdir. Azərbaycançılıq təkcə bu dövlətin ərazisində yaşayan vətəndaşları yox, eyni zamanda bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyi olub. Görülən davamlı tədbirlər sayəsində xalqın, milli dövlətimizin məfkurəsinə çevrilən Azərbaycançılıq ideologiyası mənəvi-ideoloji müstəvidə milli inkişafın praktik modelinə çevrilib. Azərbaycançılıq ideologiyasına mənəvi sərvət kimi yanaşan ulu öndər Heydər Əliyev deyib: ***"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq... Azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq, daim öz milli, mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır, Azərbaycançılıqdır".***

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının əməkdaşı Tural Rzayev "Müstəqil Azərbaycan bütün dünya azərbaycanlılarının Vətənidir" mövzusunda çıxış edib. Bildirilib ki, ulu öndərimizin şah əsəri olan güclü dövlətimizin olması milli həmrəyliyin və birliyin bütün dünyada yaşayan azərbaycanlıları əhatə etməsi baxımından çox vacib amildir. Bu, o deməkdir ki, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir soydaşımız doğma Azərbaycan üçün dəyərli olduğunu hiss edir, bu isə onu Vətən naminə çalışmağa daha da ruhlandırır. Bu gün dünya azərbaycanlıları qürur və iftixar hissi keçirirlər ki, onları müdafiə və himayə edən, hər bir azərbaycanlının inam və güvən yeri olan müstəqil Azərbaycan dövləti var. Eyni zamanda müasir, müstəqil dövlətimizin inkişafı soydaşlarımızın birlik və həmrəyliyini təmin edən mexanizm qismində çıxış edir.

Konfrans iştirakçıları ümummilli lider Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi mövzusuna həsr olunmuş filmə baxdıqdan sonra Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanış olub, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli qərarının orijinal mətninə baxıblar.

✍ **Səbuhi HƏSƏNOV**

## Müsabiqənin müsahibə mərhələsi başa çatıb

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidmətindən bildirilib ki, adıçəkilən komissiya tərəfindən dövlət statistika orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün bu ilin oktyabr ayının 11-də elan olunan müsabiqənin müsahibə mərhələsinə yekun vurulub.***

Müsahibə mərhələsinə dekabrın 11-də start verilib. Müsahibə zamanı namizədlərə ixtisasına, iddia etdiyi vəzifənin qulluq funksiyasına, xarici dil biliklərinə, informasiya texnologiyalarından istifadə bacarığına və dünyagörüşünə uyğun suallar verilib. Bu mərhələdə obyektivliyin və şəffaflığın təmin edilməsi məqsədilə müsahibə qrupunun tərkibində müstəqil ekspertin, komissiyanın və müvafiq dövlət orqanının nümayəndəsinin iştirakı təşkil edilib, müsahibə prosesinin videoçəkilişi aparılıb. Müsahibənin nəticələri haqqında məlumatlar komissiyanın rəsmi internet saytında yerləşdirilib, müsahibələrdə iştirak edən 84 namizəddən 56 nəfəri müvəffəqiyyət qazanıb.

Müsabiqəyə 74 vakant vəzifə çıxarılıb, həmin vəzifələrin tutulması üçün 192 nəfər sənəd təqdim edib. Müsabiqənin test imtahanları mərhələsində iştirak edən 170 namizəddən 108-i keçid balını toplaya bilib. Onlardan 89-u müsahibə mərhələsində iştirak etmək üçün sənəd təqdim edib. Namizədlərin hazırlığı məqsədilə müvafiq dövlət orqanı üzrə müsahibə proqramları komissiyanın rəsmi internet saytında yerləşdirilib və lazımi ədəbiyyat siyahıları göstərilib.

Məlumat üçün bildirək ki, müsahibə başa çatdıqdan dərhal sonra namizədlərin yekun bal arayışları hazırlanır və şəxsi işlərinə əlavə olunur. Qanunvericiliyə uyğun olaraq keçid balını toplamış namizəd haqqında məlumatlar komissiyanın müşayiət məktubu ilə Dövlət Statistika Komitəsinə təqdim ediləcək.

## Nağdsız ödənişlərə diqqət artırılır

Muxtar respublikamızda iqtisadi inkişafın mühüm tələblərindən biri elektron ödənişlərin həcminin genişləndirilməsi ilə nağdsız hesablaşmaların miqyasının artırılması və pul dövriyyəsi təşkilinin daha da müasirləşdirilməsidir.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumatda bildirilir ki, nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilib, dövlət təşkilatlarında əhaliyə göstərilən xidmətlər üzrə rüsum və xidmət haqlarının nağdsız ödəniş alətləri vasitəsilə ödənilməsi imkanları artırılıb. Dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz edilməsi məqsədilə POS-terminalların quraşdırılması diqqət mərkəzində saxlanılıb. Cari ilin ilk 11 ayında 147 ədəd POS-terminal quraşdırılıb və onların sayı 1 dekabr 2016-cı il tarixə 1191 ədədə çatdırılıb. POS-terminalların sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 177 ədəd artıb.

Verilən məlumatda o da bildirilir ki, bu dövrdə aparılan nağdsız əməliyyatların həcmi 25 milyon 96 min manat olub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 milyon 457 min manat çoxdur.

**Xəbərlər şöbəsi**

# Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubileyi qeyd olunub

*Dekabrın 16-da Ordubad Rayon Mədəniyyət Evində Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubiley tədbiri keçirilib.*






Tədbiri giriş sözü ilə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 21 oktyabr 2016-cı il tarixdə "Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planında Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illiyinə həsr olunmuş tədbirin, "Ordubad Şəhər Uşaq Musiqi Məktəbi 50 ildə" mövzusunda konfransın keçirilməsi, məktəbin 50 illik fəaliyyətini əks etdirən nəşrin, tematik verilişlərin və qəzet materiallarının hazırlanması, keçirilən tədbirlərin işıqlandırılması nəzərdə tutulub. Ötən müddətdə yubiley ilə bağlı bütün tədbirlər həyata keçirilib.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri uşaqların, yeniyetmələrin, gənclərin təhsilinə, tərbiyəsinə, geniş dünyagörüşə malik olmalarına, əsl vətəndaş kimi yetişmələrinə xüsusi qayğı göstərir", – deyən icra başçısı adıçəkilən sərəncamın musiqi məktəbinin kollektivində böyük ruh yüksəkliyi yaratdığını diqqətə çatdırıb, Ordubad Şəhər Uşaq Musiqi Məktəbi kollektivinin bundan sonra da istedadlı uşaqları üzə çıxaracağına, onların istedadlarını düzgün formalaşdıracağına, təlim-tərbiyə işlərini günün tələbləri səviyyəsində quracağına və etimadı doğruldacağına əminliyini ifadə edib.

İcra Hakimiyyətinin başçısı 50 illik yubiley münasibətilə kollektivi təbrik edib və yeni yaradıcılıq uğurları arzulayıb.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natavan Qədimova yubiley tədbirində çıxış edərək bildirib ki, muxtar respublikada mədəniyyətin, xüsusilə musiqi sənətinin inkişaf etdirilməsi əsas vəzifələr sırasındadır. Bu gün qədim diyarımızda musiqi sənəti inkişaf dövrünü yaşayır. Hər il Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə uşaq musiqi və bədii sənətkarlıq məktəbləri üçün yeni binalar tikilərək istifadəyə verilir, gənc nəslə musiqi sənətimizin aşılanması istiqamətində tədbirlər görülür. Bu tədbirlər bəhrəsini verir, Naxçıvanda gənc bəstəkarlar, ifaçılar, musiqiçilər nəsli yetişir.

Muxtar respublikada Azərbaycan musiqi mədəniyyətinin inkişafına və təbliğinə töhfə verən mədəni təhsil müəssisələrindən bəhs edən nazir bildirib ki, həmin müəssisələrdən biri də Ordubad Şəhər Uşaq Musiqi Məktəbidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubileyinin keçirilməsi haqqında" 21 oktyabr 2016-cı il tarixli Sərəncamı ictimaiyyət, eləcə də mədəniyyət xadimləri və musiqişünaslar tərəfindən sevinclə qarşılanıb, muxtar respublika rəhbərinin mədəniyyət və incəsənətimizə yüksək diqqət və qayğısı kimi dəyərləndirilib.

Diqqətə çatdırılıb ki Ordubadda yaradılan ilk, muxtar respublikada isə ikinci uşaq musiqi məktəbi olan bu təhsil müəssisəsi 1965-ci ilin oktyabr ayında Naxçıvan Şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbinin filialı kimi fəaliyyətə başlayıb, məktəbdə fortepiano, tar və klarnet olmaqla, 3 ixtisas üzrə tədris aparılıb. 1966-cı il avqustun 1-dən isə müstəqil təhsil müəssisəsi kimi fəaliyyətini uğurla davam etdirən məktəbdə hal-hazırda 9 ixtisas üzrə 293 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 71 müəllim məşğul olur.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində 2009-cu ilin noyabr ayında 4 mərtəbəli yeni bina ilə təmin edilən məktəbdə bu gün xalq çalğı, nəfəs alətləri orkestrləri, xor kollektivi, skripkaçalanlar, estrada, qarmonçalanlar, nağaraçalanlar ansamblları fəaliyyət göstərir. Bu musiqi kollektivlərinin repertuarında milli musiqimiz, Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı, dünya musiqisinin görkəmli nümayəndələrinin əsərləri də yer alıb.

Qeyd olunub ki, 1970-ci ildən 2016-cı ilədək məktəbi 1593 şagird bitirib. Bu gün, demək olar ki, uşaq musiqi məktəbinin pedaqoji bazasını öz yetirmələri təşkil edir.

Məktəb fəaliyyətə başladığı vaxtdan bu günə qədər bir çox uğurlara imza atıb. Bu məktəbin yetirmələri müxtəlif müsabiqələrdə uğurla iştirak edib, diplom və fəxri fərmanlara layiq görülüblər.

Bu uğurların arxasında yaradılan şəraitə yüksək səviyyədə cavab verməyə çalışan müəllim əməyinin dayandığını diqqətə çatdıran nazir bildirib ki, Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin müəllimlərinin də əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Belə ki, məktəbin direktoru Azər Məmmədov "Tərəqqi" medalı ilə təltif edilib, məktəbin müəllimi Kamal Qəniyevə "Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adı verilib. Məktəbin 50 illik yubileyi münasibətilə 15 dekabr 2016-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanmış Sərəncama əsasən, musiqi təhsili sahəsində səmərəli fəaliyyətlərinə görə məktəbin müəllimlərindən Elşən Əliyev "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi", Səbinə İbrahimova, Zülfiyyə Seyidova, Sevda Yusubova "Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adlarına layiq görülüblər.

Nazir çıxışının sonunda Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin 50 illik yubileyinin yüksək səviyyədə qeyd olunmasına, məktəbin bir qrup müəlliminin muxtar respublikanın fəxri adlarına layiq görülməsinə görə bütün mədəniyyət işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib, kollektivi yubiley münasibətilə təbrik edib.

Tədbirdə məktəbin direktoru Azər Məmmədov çıxış edərək bildirib ki, Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin ilk böyük inkişaf dövrü 1970-ci illərin əvvəlindən başlayıb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tapşırığı və təşəbbüsü ilə yaradılmış indiki Naxçıvan Musiqi Kolleci Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin ixtisaslı kadrlarla təmin olunmasında müstəsna rol oynayıb. Bu gün məktəbdə tədris aparan 76 müəllimin 72-si Naxçıvan Musiqi Kollecinin məzunudur.

Qeyd olunub ki, məktəb hər il ölkə, eləcə də muxtar respublika səviyyəli uşaq musiqi məktəblərinin baxış-müsabiqələrində fəal iştirak edir. Bu müsabiqələrdə bu günə qədər 178 diplom və fəxri fərmana layiq görülüb. 1999-cu ildə keçirilən uşaq musiqi məktəbləri şagirdlərinin respublika müsabiqəsində məktəbin tar ixtisası üzrə V sinif şagirdi Vüqar Əliyev müsabiqənin laureatı adını qazanıb. Məktəbin xor kollektivi 2007-ci ildə xor kollektivlərinin V respublika müsabiqəsində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin II dərəcəli, 2009-cu ildə VI respublika müsabiqəsində I dərəcəli, 2011-ci ildə VII respublika müsabiqəsində II dərəcəli, 2013-cü ildə VIII respublika müsabiqəsində II dərəcəli diplomla təltif edilib. 2012-ci ilin iyun ayında Gənc pianoçuların II respublika müsabiqəsində Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin fortepiano ixtisası üzrə VII sinif şagirdi Çilər Məmmədova Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin diplomuna layiq görülüb.

Qeyd edilib ki, məktəbin həyatında ən əlamətdar hadisələrdən biri muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində 2009-cu ildə bu musiqi təhsili ocağı üçün yeni, müasir standartlara cavab verən, 3 zal, 49 sinif otağından ibarət olan dördmərtəbəli binanın istifadəyə verilməsi olub.

Məktəbin direktoru çıxışının sonunda Ordubad Şəhər Uşaq Musiqi Məktəbinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib. O qeyd edib ki, kollektiv bundan sonra da uşaqlara musiqi sənətinin sirlərinin öyrədilməsi və təbliği sahəsində öz səyini əsirgəməyəcək, istedadlı gənc kadrların yetişdirilməsi sahəsində əzmlə çalışacaqdır.

Yubiley tədbirinin bədii hissəsində Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin musiqi kollektivlərinin ifasında Azərbaycan və Avropa bəstəkarlarının əsərləri səsləndirilib.

**Əli RZAYEV**

---

*Noyabr ayında muzeyləri 2303-ü əcnəbi vətəndaş olmaqla, ümumilikdə, 28 min 925 tamaşaçı ziyarət etmiş, muzey fondlarına 150 yeni eksponat daxil edilmişdir.*

## Muzeylərimizi noyabrda 28 min 925 tamaşaçı ziyarət etmişdir

Naxçıvan Dövlət Rəsm Qalereyasında, Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyində muzey bələdçilərinin peşə biliklərinin artırılması, təcrübə mübadiləsinin aparılması məqsədilə dəyirmi masa və seminar-treninq, o cümlədən muzeylərdə 24 açıq dərs keçilmişdir. Kitabxanaların fəaliyyəti də diqqət mərkəzində saxlanılmış, 56 mədəni-kütləvi tədbir keçirilmiş, 28 sərgi təşkil olunmuşdur. Bu dövrdə kitabxanalara 97 adda 1972 nüsxə çap məmulatı daxil olmuş, oxucu sayı 284, oxucu gəlişi 17 mindən artıq, kitab verilişi 50 min 987 nüsxə təşkil etmişdir. Naxçıvan Dövlət Musiqili Dram Teatrında 4, Naxçıvan Dövlət Kukla Teatrında isə 26 tamaşa teatrsevərlərə təqdim olunmuşdur.

Yaradıcı gənclərlə iş diqqət mərkəzində saxlanılmış, mədəniyyət və incəsənət sahəsində xüsusi istedadı olan bir qrup gəncin muzeylərə ekskursiyası təşkil edilmiş, "Azərbaycan musiqi mədəniyyətinin inkişafında gənclərin rolu" mövzusunda dəyirmi masa keçirilmişdir. Naxçıvan Dövlət Universitetinin Turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələrinin turizm obyektlərində təcrübə keçmələri təmin olunmuş, onlar üçün ekskursiya təşkil edilmiş, Naxçıvan Musiqi Kollecində Kitabxana-informasiya təminatı ixtisası üzrə təhsil alan tələbələr üçün kitab müzakirəsi, Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və tarixi abidələrin qorunması ixtisası və Kitabxanaçılıq və informasiya fakültəsinin tələbələri üçün 2 açıq dərs keçilmiş, Naxçıvan Musiqi Kollecində isə "Azərbaycanın mətbəx mədəniyyəti" mövzusunda mühazirə oxunmuşdur. Bu dövrdə Turizm İnformasiya Mərkəzinin "Facebook" sosial şəbəkəsinə 145 məlumat, "Youtube" videoportalına 60 məlumat-videoçarx daxil edilmiş, 127 yerli və xarici ölkə vətəndaşının müraciəti cavablandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

---

## Azərbaycanda təhsil siyasətinin prioritetləri: *müasir yanaşmalar*

*Bu mövzuda Naxçıvan Dövlət Universitetində Azərbaycan Respublikasının Təhsil İnstitutu və Naxçıvan Müəllimlər İnstitutu ilə birgə elmi konfrans keçirilib.*



Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ölkəmizdə təhsil sahəsində aparılan islahatlardan, həyata keçirilən müxtəlif layihələrdən söz açıb, Naxçıvan Dövlət Universitetinin keçdiyi inkişaf yolu və beynəlxalq əlaqələri haqqında məlumat verib.

Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini, dosent Ənvər Abbasov "Təhsilin yeni məzmununun yaradılması problemi" adlı məruzəndə bildirib ki, hazırda təhsilin məzmunu və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşmə prosesləri gedir. Elmi-texniki tərəqqinin, ümummədəni səviyyənin, istehsalın və ümumiyyətlə, cəmiyyətin inkişafı ilə əlaqədar olaraq təhsilin məqsədi və bu məqsədə çatmaq üçün onun məzmununa qoyulan tələblər də dəyişir. Ənvər Abbasov "təhsil məzmunu" və "yeni təhsil məzmunu" anlayışlarının oxşar və fərqli xüsusiyyətləri, pedaqoji anlayışların semantikasında baş verən yerdəyişmələr və yeniliklər haqqında danışıb.

Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi şöbəsinin müdiri, professor İntiqam Cəbrayılov "Pedaqoji tədqiqatlara verilən tələblər təhsil siyasətinin prioriteti kimi" adlı məruzəsində pedaqoji tədqiqatların düzgün aparılma qaydaları haqqında ümumi məlumat verib və bu sahədə rast gəlinən nöqsanları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

"Fənlərarası əlaqə məktəblilərin hərbi xidmətə hazırlanmasında başlıca vasitələrdən biri kimi" adlı məruzə ilə çıxış edən Gəncə Dövlət Universitetinin Ümumi pedaqogika kafedrasının müdiri, professor Şahin Tağıyev təmsil etdiyi tədris ocağında bu məsələ ilə bağlı uzun illər aparılan geniş tədqiqatlar və onların nəticələri haqqında məlumat verib.

Konfrans işini bölmə iclasları ilə davam etdirib.

**Nərmin CABBAROVA**

# “Naxçıvan: dünən və bu gün” yaradıcılıq müsabiqəsi qaliblərinin mükafatlandırma mərasimi olub





*Dekabrın 16-da Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu tərəfindən keçirilən “Naxçıvan: dünən və bu gün” yaradıcılıq müsabiqəsi qaliblərinin mükafatlandırma mərasimi keçirilmişdir.*

Əvvəlcə tədbirin aparıcıları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmizin, o cümlədən Naxçıvan Muxtar Respublikasının çoxşaxəli inkişafı, təhlükəsizliyinin təmin olunması istiqamətində gördüyü işlərdən, müstəqillik illərində Naxçıvanda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərindən danışmışlar. Qeyd olunmuşdur ki, bu gün muxtar respublika sosial-iqtisadi baxımdan sürətlə inkişaf edir, Naxçıvanda ictimai həyatın bütün sahələrinin yeniləşdirilməsi yaradıcılıq təşkilatlarını, kütləvi informasiya vasitələrini də əhatə etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxışında bildirmişdir ki, dövlət gənclər siyasəti bu gün Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Son illər gənclərimizin muxtar respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının uğurla həyata keçirilməsi, gənc istedadların dövlət qayğısı ilə əhatə olunması gənclər siyasətinin həyata keçirilməsi istiqamətində görülən tədbirlərdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması isə muxtar respublikamızda gənclər sahəsində görülən işlərə daha da təkan vermişdir. Fond ötən dövr ərzində muxtar respublikada gənclərlə bağlı layihələrin və tədbirlərin həyata keçirilməsini diqqət mərkəzində saxlamış, bu istiqamətdə bir sıra işlər görülmüşdür. Bu gün artıq yekun tədbirinə toplaşdığımız “Naxçıvan: dünən və bu gün” yaradıcılıq müsabiqəsi də belə tədbirlərdən biridir.

Qeyd olunmuşdur ki, teleradio verilişi, qəzet məqaləsi, rəsm əsəri, ədəbi yaradıcılıq, musiqi və elmi məqalə kateqoriyaları üzrə keçirilən müsabiqəyə 81 iştirakçı tərəfindən 21 teleradio verilişi və videoçarx, 28 qəzet məqaləsi, 21 rəsm əsəri, 15 ədəbi yaradıcılıq və 12 elmi məqalə olmaqla, cəmi 97 material təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu və Gənclər Fondu tərəfindən keçirilən müsabiqənin Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi və Naxçıvan Mətbuat Şurasının nümayəndələrindən təşkil olunmuş münsiflər heyəti formalaşdırılmışdır. Müsabiqəyə təqdim olunan işlər bədii səviyyəsi və keyfiyyəti, ideyanın orijinallığı, savadlı kompozisiya həlli, işin təsiredici qüvvəyə malik olması, mövzunun asan qavranılması, yaradıcı yanaşma və digər meyarlar əsasında qiymətləndiriləcək qaliblər müəyyənləşdirilmişdir. Müsabiqənin əsasnaməsinə uyğun olaraq 1 birinci, 2 ikinci, 3 üçüncü və 4 həvəsləndirici yer müəyyənləşdirilmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxışında demişdir ki, Naxçıvan Muxtar Respublikası ötən müddət ərzində böyük inkişaf yolu keçmişdir. Muxtar respublikada genişmiqyaslı tikinti və quruculuq işləri aparılmış, yollar, körpülər, müasir binalar salınmış və ya yenidən qurulmuş, istehsal müəssisələri yaradılmış, on minlərlə yeni iş yeri açılmış, iqtisadiyyatın sürətli inkişafı təmin olunmuş, məktəblər, xəstəxanalar, idman kompleksləri inşa edilmiş, elektrik, qaz və su təminatı yaxşılaşdırılmış, bir sözlə, bütün sahələrdə əsaslı inkişaf əldə olunmuşdur. Muxtar respublikanın şəhər mərkəzləri ilə yanaşı, kənd yaşayış məntəqələrində də infrastruktur yenilənmiş, müasir məktəb binaları, həkim ambulatoriyaları, kənd və xidmət mərkəzləri istifadəyə verilmiş, kənd əhalisinin sosial rifah halı yaxşılaşdırılmışdır.

“Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafı ilə yanaşı, tarixi abidələrə, mədəniyyətə, incəsənətə qayğı da yüksək səviyyədə olmuş, tarixi abidələrin qorunması, bərpası, tədqiqi və təbliği sahəsində mühüm işlər görülmüşdür. İkinci ömrünü yaşayan tarix-mədəniyyət abidələri heç vaxt indiki qədər diqqət və qayğı ilə əhatə olunmamış, xalqımıza tanıdılmamış, təbliğ edilməmişdir”, – deyən Rəhman Məmmədov bildirmişdir ki, görülən işlər sayəsində Naxçıvan Muxtar Respublikası günü-gündən tarixi saxlanılmaqla simasını dəyişir, yeniləşir, müasirləşir, inkişaf edir. Naxçıvanda inkişafın, müasirliyin, birliyin və həmrəyliyin nümunəsi formalaşır. Bu nümunənin işığında isə yaradıcı, fəal gənclik yetişir. Müasir gənclik intellektual və yaradıcılıq potensialını daim artırır, təhsildə və idmanda uğurlar qazanır, müxtəlif dövlət orqanlarında, icra strukturlarında, özəl bölmədə geniş təmsil olunur.

Vurğulanmışdır ki, muxtar respublikanın bu gününü dünənindən fərqləndirən əsas xüsusiyyətlərdən biri də Naxçıvanda söz, fikir və mətbuat azadlığının təmin olunması, kütləvi informasiya vasitələrinin və digər yaradıcılıq təşkilatlarının fəaliyyətinin gücləndirilməsidir. Ötən müddət ərzində muxtar respublikada gənc alim, jurnalist və rəssamların yetişməsi, ədəbi mühitin inkişafı diqqət mərkəzində saxlanılmış, onların yaradıcılıq imkanları xeyli genişləndirilmişdir. Yaradıcılıq təşkilatlarının maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, həm də bu sahədə çalışanlara daim mənəvi dəstək verilmiş, onların fəaliyyəti yüksək qiymətləndirilmişdir. Artıq muxtar respublikadakı mövcud yaradıcılıq mühiti hər bir əməkdaşa istənilən mövzuda sərbəst material hazırlamağa, araşdırma aparmağa imkan verir. Bunun da nəticəsində muxtar respublika reallıqları televiziya və mətbuat orqanlarında, rəsm və ədəbi yaradıcılıq nümunələrində olduğu kimi öz əksini tapır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun və Gənclər Fondunun təşkilatçılığı ilə keçirilən “Naxçıvan: dünən və bu gün” yaradıcılıq müsabiqəsinin əsas məqsədi də muxtar respublikanın inkişaf tarixinə nəzər salmaq, bu sahədəki yaradıcılıq fəaliyyətinə dəstək vermək, iştirakçıların bacarıqlarını və ideyalarını üzə çıxarmaqdan ibarət olmuşdur. Müsabiqəyə 81 iştirakçı tərəfindən 97 material daxil olmuşdur. Sevindirici haldır ki, müsabiqədə gənclər fəallıq göstərmiş, Naxçıvanın dünəni ilə bu gününü təqdim etdikləri materiallarda geniş müqayisə etmişlər.

Rəhman Məmmədov “Naxçıvan: dünən və bu gün” yaradıcılıq müsabiqəsinin qaliblərini təbrik etmiş, müsabiqə iştirakçılarına uğurlar arzulamışdır.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvü, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli, “Şərq qapısı” qəzetinin baş redaktoru Tural Səfərov çıxış etmişlər.

Çıxışlarda bildirilmişdir ki, Naxçıvan ümummilli liderimiz Heydər Əliyevin görmək istədiyi kimi qurulur, inkişaf edir və müasirləşir. Naxçıvanın dünəni ilə bu günü arasında müqayisəolunmaz fərqlər vardır. Blokadadan yüksək inkişafa, tərəqqiyə doğru addımlayan muxtar respublikamız nümunəvi bir regiona çevrilmişdir. İqtisadi və nəqliyyat əlaqələrinin məhdud olduğu şəraitdə yüksək iqtisadi fəallığa nail olunması, istehsal potensialının hərəkətə gətirilməsi, davamlı quruculuq işləri, sosial problemlərin həlli və ən əsası əhalinin rifah halının yaxşılaşdırılması inkişafın Naxçıvan modelinin xarakterik xüsusiyyətləridir. Blokadanın çətinliklərinə baxmayaraq, muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilmiş, bütün sahələrdə mühüm nailiyyətlər əldə olunmuşdur.

Diqqətə çatdırılmışdır ki, Naxçıvan teleradiosu son illər əsl inkişafa qovuşmuş, maddi-texniki bazası xeyli gücləndirilmiş, teleradionun binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş, teleradio ən müasir texniki avadanlıqlarla təchiz edilmişdir. Muxtar respublikada yeni yayım avadanlıqlarının tətbiqi nəticəsində analoq yayım yüksəkkeyfiyyətli rəqəmsal yayımla əvəzlənmiş, Naxçıvan televiziyasının yüksəkkeyfiyyətli HD formatda yayımına başlanmışdır. Muxtar respublikanın mətbuatı da böyük diqqət və qayğı göstərilən sahələrdən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 29 mart tarixli “Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” Sərəncamından sonra mətbuat orqanlarının maddi-texniki bazası daha da gücləndirilmişdir. Milli mətbuatımızın 135 illik yubileyində “Şərq qapısı” qəzeti redaksiyası və “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksi istifadəyə verilmiş, əməkdaşlar üçün müasir iş şəraiti yaradılmış, qəzetlərin rəngli nəşrinə başlanmışdır. Bütün bunlarla yanaşı, qəzet əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi də daim diqqət mərkəzində saxlanılır.

Çıxış edənlər qalibləri təbrik etmiş, onlara yeni-yeni uğurlar arzulamışlar.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Folklorşünaslıq şöbəsinin müdiri, şair Elxan Məmmədov birinci, Azərbaycan Dövlət İnformasiya Agentliyinin Naxçıvan Muxtar Respublikasındakı bürosunun rəhbəri Rauf Əliyev və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əməkdaşları Fərhad Zamanbəyov və Elçin Məmmədov ikinci, “Şərq qapısı” qəzetinin müxbiri Səbuhi Hüseynov, Naxçıvan Dövlət Universitetinin Mətbuat şöbəsinin müdiri Mehriban Sultan və rəssam Mirilqar Seyidov üçüncü yerə layiq görülmüşlər. Qaliblərə pul mükafatı və diplomlar təqdim olunmuşdur.

“Oğuz səsi” qəzetinin redaktoru Şəhla Nəbiyevaya, Naxçıvan Dövlət Televiziyasının əməkdaşı Ruhiyyə Rəsulovaya, rəssam Gülçöhrə Bağırovaya, Naxçıvan Dövlət Radiosunun əməkdaşı Türkanə Ağayevaya həvəsləndirici mükafatlar verilmişdir.

Müsabiqənin bütün iştirakçılarına xüsusi diplomlar təqdim olunmuşdur.

Tədbirdə Naxçıvan Musiqi Kollecinin “Gənclik” instrumental ansamblının müşayiəti ilə kollecin müəllimi Samir İsmayılovun ifasında səslləndirilən “Naxçıvan”, “Xalq Heydər söyləyəcək”, kollecin tələbəsi Əfsanə Babayevanın ifa etdiyi “Dinlə məni sevgilim” mahnıları, kollecin tələbələrinin “Yallı” rəqsi alqışlarla qarşılanmışdır.

**Xəbərlər şöbəsi**

---

*Naxçıvanda sosial-iqtisadi inkişafın göstəriciləri mütəmadi olaraq yüksəlməkdədir. Bu göstəricilərin tərkib hissəsi olan tikinti-quruculuq və abadlıq tədbirlərinin geniş vüsət aldığını bütün bölgələrimizdə görmək mümkündür.*

## Yeni obyektlər təhvilə hazırlanır

Muxtar respublikamızın ən böyük bölgələrindən biri olan Şərur rayonu da belə tədbirlərin ön sırasındadır. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsi tərəfindən cari ildə bölgənin bir sıra yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri həyata keçirilib. Bu tədbirlərdən Arpaçay kəndinə də pay düşüb. Belə ki, inşaatçılar bu yaşayış məntəqəsində iki yeni obyektin inşasını başa çatdırıblar. Hazırda obyektlərdə son tamamlama işləri görülür.

Obyektlərdən biri yeni kənd mərkəzidir. Mərkəzdə kəndin müxtəlif dövlət qurumları üçün müasir iş şəraiti yaradılıb. İnzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və digər qurumların fəaliyyət göstərəcəyi bina arpaçaylıların vaxta qənaətinə imkan verəcək.

Xidmət mərkəzi də kənd sakinlərinə dövlət qayğısının ifadəsidir. Burada mağazalar, ət satışı dükanı, xidmət sahələri fəaliyyət göstərəcək. Hər iki obyektin tikintisində yerli inşaat materiallarından istifadəyə üstünlük verilib, keyfiyyət amili diqqətdə saxlanılıb.

Ərazidə abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, yaşıllıqların suvarılması üçün yeraltı su xətləri çəkilib.

**Xəbərlər şöbəsi**

---

## Muxtar respublikanın avtomobil nəqliyyatı təsərrüfatı qışa hazırdır



Nəqliyyat-yol infrastrukturunun müasir standartlar səviyyəsinə çatdırılması, nəqliyyat-yol kompleksinin yenidən qurulması muxtar respublikada daim diqqət mərkəzindədir. Həyata keçirilən tədbirlər ilin hər fəslində yaşayış məntəqələri arasında nəqliyyatın intensiv hərəkətinə imkan verir.

Noyabr ayında da bu sahədə müəyyən tədbirlər görülmüş, payız-qış mövsümünə hazırlıq işləri vaxtında başa çatdırılmışdır. Bu dövrdə İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə Naxçıvandan Bakıya 1545, əks istiqamətdə isə 1248 sərnişin daşınmışdır. Muxtar respublika daxilində sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəldilmiş, fəaliyyətdə olan 139 marşrut xəttində 305 avtobus olmaqla rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmiş, sərhəd kəndlərinə və ucqar dağ kəndlərinə işləyən marşrut avtobuslarının fəaliyyəti xüsusi nəzarətdə saxlanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***



*18 dekabr Beynəlxalq Miqrant Günüdür*

# Naxçıvanda miqrasiya sahəsində ardıcıl tədbirlər görülür

***1990-cı il dekabrın 18-də Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən “Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında” Konvensiya qəbul edilmişdir. 2000-ci ildən etibarən həmin tarix “Beynəlxalq Miqrant Günü” kimi qeyd olunur.***

Miqrasiya və miqrantlar mövzusu müasir dünyada geniş müzakirələrə səbəb olan ən aktual məsələdir. Son illər baş verən müxtəlif siyasi və iqtisadi proseslər miqrasiyanın, xüsusilə sosial-iqtisadi miqrasiyanın genişlənməsinə təsirsiz ötüşməmişdir. Hazırda mövcud miqrantların böyük əksəriyyətini əməkçi miqrantlar təşkil edir ki, bu da onlarla bağlı problemlərə xüsusi diqqət yetirilməsini və bununla bağlı bir çox məsələlərdə dövlətlər tərəfindən vahid yanaşmanın tətbiq olunmasını zəruri edir. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş, 1 milyondan çox vətəndaşımız qaçqın və məcburi köçkünə çevrilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışından sonra siyasi və iqtisadi sabitlik bərqərar edildi. Bu dövrdə yalnız məcburi miqrasiyanın tənzimlənməsi deyil, bütövlükdə miqrasiya və iqtisadi təhlükəsizlik prosesləri də ulu öndərin milli inkişaf strategiyasının tərkib hissəsi olmuşdur. 1994-cü ildə “Əsrin müqaviləsi” imzalandıqdan sonra neft layihələrinin gerçəkləşməsi, yeni neft və qaz kəmərlərinin istifadəyə verilməsi, neft yataqlarının işlənməsi üzrə beynəlxalq layihələrin həyata keçirilməsi xarici investorların və əməkçi miqrantların ölkəmizə axınına səbəb oldu. Xüsusən 2003-cü ildən sonra Prezident cənab İlham Əliyevin ulu öndərin yolunu davam etdirərək ölkəmizi yeni inkişaf mərhələsinə çatdırması bu prosesləri daha da sürətləndirdi. İstər əcnəbilərin Azərbaycan Respublikasına, istərsə də ölkə vətəndaşlarının xarici ölkələrə miqrasiyasını tənzimləyən zəruri normativ-hüquqi aktlar qəbul olundu. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi prosesi sonrakı dövrdə də davam etdirildi, 2013-cü ildə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi qəbul olundu.

Azərbaycanın miqrasiya sahəsindəki siyasəti ölkənin sosial-iqtisadi maraqlarının qorunması ilə yanaşı, miqrantların, o cümlədən də əməkçi miqrantların həyat və fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına, onların hüquqlarının müdafiəsinə yönəldilmişdir. Bu gün ölkəmizdə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hər birinin hüquq və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının normativ-hüquqi aktları ilə tənzimlənir. Hazırda ölkəmizdə əmək miqrasiyası prosesləri sürətlə genişlənmiş və Azərbaycan təyinat ölkəsinə çevrilmişdir. Ölkəmizə gələn miqrantların sayının artmasının başlıca səbəbi son illər respublikamızda sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin yaradılması, demokratik institutların genişlənməsi, vətəndaş cəmiyyətinin bərqərar olması, ölkə iqtisadiyyatının sürətli inkişafı və əhalinin yaşayış səviyyəsinin yüksəlməsidir. İnkişaf templərinə görə ölkəmiz bu gün dünya dövlətləri arasında ön sıralardadır.

Naxçıvan Muxtar Respublikasında da miqrasiya prosesləri qanunvericiliyin tələblərinə uyğun tənzimlənir, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir. Son illər muxtar respublikada həyata keçirilən uğurlu islahatlar nəticəsində yaşayış səviyyəsi yüksəlmiş, əlverişli coğrafi-strateji mövqeyi, mühüm ticarət qovşaqlarının üzərində yerləşməsi Naxçıvanı əcnəbilər üçün cəlbedici yerə çevirmişdir. Ona görə də miqrasiya sahəsində dövlət nəzarətinin həyata keçirilməsi, qarşıya qoyulan vəzifələrin vaxtında və düzgün yerinə yetirilməsi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün müasir standartlara cavab verən yeni inzibati binanın istifadəyə verilməsi bu sahədə görülən işlərin davamıdır.

Xidmət əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin muxtar respublikada olma müddətlərinin uzadılması, müvəqqəti və daimi yaşama icazələrinin, haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi məsələləri ilə məşğul olur. Müvafiq icazə almış əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri yaşayış yeri üzrə qeydiyyata alır, vətəndaşlıq və qaçqın statusunun verilməsi məsələlərinin həllində iştirak edir. Bundan əlavə, Dövlət Miqrasiya Xidməti muxtar respublika ərazisində müvəqqəti olan, habelə müvəqqəti və daimi yaşayan əcnəbilərin qanunvericiliyin tələblərinə riayət etmələri üzərində miqrasiya sahəsinə nəzarəti həyata keçirir.



Muxtar respublikaya ildən-ilə artan miqrasiya axını milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsini, onun əsasında miqrasiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini və inkişaf etdirilməsini, dövlət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsini və bu sahədə beynəlxalq təcrübənin qazanılmasını zəruri etmişdir. Bunun üçün də Dövlət Miqrasiya Xidməti miqrasiya siyasətinin həyata keçirilməsində beynəlxalq konvensiyalara və onların tələblərindən irəli gələn məsələlərə xüsusi önəm verir. Xidmət tərəfindən muxtar respublikada miqrasiya proseslərinin idarə edilməsində beynəlxalq təcrübənin öyrənilməsi və bu sahədə kadr potensialının formalaşdırılması daim diqqət mərkəzində saxlanılır. Belə ki, xidmətin bir qrup əməkdaşı cari ildə Bakı və Naxçıvan şəhərlərində Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən “Readmissiya və insan hüquqları sahəsində potensialın artırılması” üzrə təşkil edilmiş təlimdə və Naxçıvan Biznes Mərkəzində İnsan Alverinə Qarşı Beynəlxalq Mübarizə Gününə həsr olunmuş beynəlxalq konfransda iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti fəaliyyət göstərdiyi qısa müddətdə yaxşı təşkilatlanmış, miqrasiya proseslərinin tənzimlənməsinə fəal təsir etmək qabiliyyəti əldə etmişdir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasında ilk dəfə olaraq sərhəd-buraxılış məntəqələrində yerləşən miqrasiya bölmələrinin fəaliyyəti Naxçıvan Muxtar Respublikasında həyata keçirilməyə başlanmışdır. Bununla yanaşı, sərhəd-buraxılış məntəqələrində əcnəbilərin miqrasiya uçotunun aparılması üçün Vahid Miqrasiya Məlumat Sistemi yaradılmışdır. Bunun nəticəsində də muxtar respublikaya müvəqqəti və daimi yaşamaq, iş icazəsi almaq və digər məqsədlərlə daxil olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ilkin qeydiyyat mərhələsi olan olduğu yer üzrə qeydiyyata alınma proseduru sadələşdirilmiş və onlara regionlardan uzaq məsafə qət etmədən Dövlət Miqrasiya Xidmətinə müraciət etmək imkanı yaradılmışdır.

Fəaliyyətə başladığı ilk gündən etibarən miqrasiya sahəsində baş verən yeniliklərin və mühüm tədbirlərin ictimaiyyətə çatdırılması işində daim operativlik nümayiş etdirən Dövlət Miqrasiya Xidməti vətəndaşların məlumatlandırılması və maarifləndirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirmişdir. Belə ki, ictimaiyyətin miqrasiya sahəsində maarifləndirilməsi məqsədilə yerli televiziya kanalında və Naxçıvan şəhərinin ictimai yerlərində yerləşdirilən monitorlarda mütəmadi olaraq yenilənən maarifləndirici videoçarxların nümayişi təşkil edilmiş, sərhəd-keçid məntəqələrində yerləşdirilmiş elektron məlumat köşkləri üzərində müvəqqəti və daimi yaşamaq, olduğu yer üzrə qeydiyyata alınma, haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazələrinin verilməsi və müddətinin uzadılması ilə bağlı məlumatlar 3 dildə (Azərbaycan, rus və ingilis dillərində) yazılı və səslə muxtar respublikaya daxil olan xarici ölkə vətəndaşlarına təqdim olunmuşdur. Eyni zamanda xidmətin üç dildə (Azərbaycan, ingilis və rus dillərində) fəaliyyət göstərən rəsmi internet səhifəsi üzərində yerləşdirilmiş “Sual-cavab” bölməsinə, həmçinin qurumun elektron ünvanlarına əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin dünyanın istənilən yerindən onları miqrasiya sahəsində maraqlandıran məsələlərlə bağlı müraciət etmələri və vaxtında hüquqi yardım almaları üçün lazımi təşkilati tədbirlər həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə “Elektron hökumət portalı” üzərindən 9 sahə üzrə xidmət göstərir. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazələrinin verilməsi və müddətinin uzadılması da bu xidmət növlərinə daxildir. Əməkçi miqrantların işə götürülmə prosedurunu sadələşdirmək üçün xidmətin rəsmi internet səhifəsi üzərində “Elektron xidmətlər” bölməsi yerləşdirilmiş, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən iş icazələrinin və onun əsasında muxtar respublika ərazisində yaşamaq hüququ verən müvafiq icazələr üçün müraciətetmə imkanı yaradılmışdır. Eyni zamanda bu xidmət növləri üzrə dövlət rüsumlarının internet üzərindən ödənilməsi də onlayn həyata keçirilə bilər. Dövlət Miqrasiya Xidmətinin “202 – Miqrasiya Məlumat Mərkəzi”nin fəaliyyəti də miqrasiya sahəsi üzrə qanunvericilik və sənədlərin icrası ilə bağlı informasiyaları əldə etmək hüququnun təmini baxımından vacib əhəmiyyətə malikdir.

Muxtar respublikada insan hüquq və azadlıqlarına daim diqqətlə yanaşılır. Buna sübut olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin istifadəyə verilməsini göstərmək olar. Beynəlxalq standartlara uyğun olan mərkəzdə könüllü və məcburi saxlanılan miqrantların hüquqlarının təmin edilməsi məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq hər cür şərait yaradılmışdır.

Naxçıvan buraya səfər edən miqrantlar üçün qədim tarixi abidələri və təbiəti ilə zəngin turizm məkanı yox, eyni zamanda yaşamaq və işləmək üçün də əlverişli bir məkana çevrilib. Bu baxımdan Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti muxtar respublikaya gələn əcnəbilərin maarifləndirilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirir. Dövlət Miqrasiya Xidməti və Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən əcnəbilər Azərbaycanın, o cümlədən muxtar respublikanın mədəniyyəti, incəsənəti, mətbəxi və turizm imkanları haqqında məlumatlandırılır, maarifləndirici tədbirlər və muzeylərə ekskursiyalar təşkil olunur.

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcək, miqrasiya proseslərini qanunvericiliyin tələblərinə uyğun tənzimləyəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***



# Mən Nəqşi-Cahanam!

Mən böyük Vətənin bir parçasıyam, tarix yadigarı ulu torpağam, bundan illər öncə, günün birində, paytaxta aparan yol kəsiləndə, qatarlar ünvana yetişməyəndə, ümidsiz, çarəsiz baxıb qalmışam, elə bil əbədi unudulmuşam.

... Mən əsir olmadım yadlar əlində, qəm-qüssə tapmadım darda- çətində. Qırdım qollarımın polad buxovun, dayandım ellərin köçhaköçündə. Mənə uzaqlardan sonsuz həsrətlə, torpaq itkisiylə, böyük kədərlə, baxmaq istəmədi mərd oğullarım, düşmənə sədd oldu uca dağlarım. Zülmətdə qalanda elim, şəhərim, atəşdə yananda uca sərvlərim, bir çıraq közərdi mənim yurdumda, isindi yüz minlər onun odunda. Beləcə, döyündü zəif ürəyim, gündən-günə artdı arzum, diləyim, şahidi oldum mən böyük işlərin, bunlar əməliydi cəfakeşlərin.

Min illər ərzində mən yurd olmuşam, ululardan ulu böyük xalqıma. Başlar üstə səma, bulud olmuşam, mən yağış olmuşam öz torpağıma. Uca qalalarda mən daş olmuşam, bu xalqla dar gündə sirdaş olmuşam. Bu xalq da dar gündə qədrimi bilib, məndən bir qarış da yada verməyib. Ucaldıb qoynumda saraylar, evlər, qalalar, türbələr və məqbərələr, bu gün mənzərəmə heyrandır ellər. İndi mən gerçək bir Nəqşi-Cahanam, yaşı ulułardan ulu, ruhu cavanam.

**Səbuhi HÜSEYNOV**

***İtmişdir***

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini İsmayılov Niyaz Məmmədsadıx oğlunun adına olan JN-321^A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 954